# Bir müsəlman gözəl şəkildə dəstəmaz alar, sonra qalxıb iki rükət namaz qılar və bu iki rükətə qəlbi və üzü ilə yönələrsə, ona Cənnət vacib olar

Uqbə bin Amir (Allah ondan razı olsun) demişdir: Biz dəvələrə qulluq etməli idik və mənim növbəm gəldikdə axşam onların yanına getdim və Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaq üstə dayanıb insanlarla danışdığını gördüm və onun bu sözünə yetişdim: "Bir müsəlman gözəl şəkildə dəstəmaz alar, sonra qalxıb iki rükət namaz qılar və bu iki rükətə qəlbi və üzü ilə yönələrsə, ona Cənnət vacib olar" Dedi: Mən də dedim: Bu necə də gözəldir! Elə bu vaxt qarşımda bir kəs dedi: “Bundan öncəki daha gözəl idi" Gördüm ki, Ömərdir və O, dedi: “Sənin bir az əvvəl gəldiyini gördüm. Sonra əlavə etdi: “Sizdən kim dəstəmaz alar və dəstəmazını kamil şəkildə yerinə yetirər, sonra: "Əşhədu əllə iləhə illallah və ənnə Muhəmmədən əbdullahi va rasuluhu" deyərsə, onun üçün Cənnətin səkkiz qapısı açılar və o, istədiyi qapıdan daxil olar”.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlarla danışarkən iki böyük fəziləti bəyan etdi: Birincisi: Hər kim gözəl şəkildə dəstəmaz alar, onu sünnəyə uyğun tamamlayar və hər bir üzvünə lazımi miqdarda suyu çatdırarsa və sonra deyərsə: “Əşhədu əllə iləhə illallah və ənnə Muhəmmədən əbdullahi va rasuluhu", onun üçün Cənnətin səkkiz qapısı da açılar və o, istədiyindən daxil olar. İkincisi: Hər kim bu dəstəmazı tam, kamil şəkildə alar, bu dəstəmazdan sonra ayağa qalxıb iki rükət namaz qılar, bunları qəlbində ixlas və xuşu ilə edər, üzü və bütün bədən üzvləri ilə Allaha təslim olarsa, Cənnət ona vacib olar.

https://sunnah.global/hadeeth/az/show/8388